# AÇIQ HAVA OYUNLARININ TƏŞKİLİ VƏ METODİKASI

# OXU MATERİALI

**2025**

**MÜNDƏRİCAT**


**1. Açıq hava oyunlarının təşkili....................................................................................3**

**2. Planlaşdırma..................................................................................................................8**

**3. Dəyərləndirmənin növləri və Portfolio metodu........................................................11**

**4. Valideynlərlə əməkdaşlıq............................................................................................18**

**5. Keçidlər anlayışı.........................................................................................................20**

**6. Uşaqlarda sıralama bacarıqlarının inkişafı, açıq hava oyunlarına nitq və riyazi bacarıqların inteqrasiyası........................................................................................21**

**Ədəbiyyat siyahısı...........................................................................................................23**

## Mövzu 1. Açıq hava oyunlarının təşkili

Açıq hava oyunları məktəbəqədər təhsilin vacib hissəsidir. Bu oyunlar uşaqlarda fiziki, sosial-emosional və idrakın inkişafını dəstəkləyir, eyni zamanda təbiətlə əlaqə yaradır. Araşdırmalara görə, açıq havada oyun oynamaq uşaqların sağlamlığını yaxşılaşdırır, öyrənməni maraqlı edir və uşaqların hərtərəfli inkişafına töhfə verir. Fiziki cəhətdən bu fəaliyyətlər böyük və kiçik motor bacarıqlarını inkişaf etdirir, piylənmə riskini azaldır və sağlamlığı yaxşılaşdırır. Məsələn, qaçmaq, dırmaşmaq və oyun oynamaq. Açıq havada oyun oynayan uşaqlar daha yaxşı fiziki formaya və yuxu keyfiyyətinə malik olurlar.
Sosial-emosional inkişaf baxımından, açıq hava fəaliyyətləri empatiya və özünəinamın inkişafına kömək edir. Qrup oyunları vasitəsilə uşaqlarda sosial qarşılıqlı əlaqələr qurmaq, müstəqillik problem həlletmə və əməkdaşlıq bacarıqları formalaşır və təkmilləşir. Bundan əlavə, təbiətdə oyun oynamaq stresi azaldır, emosional dayanıqlılığı artırır və sosial bacarıqları gücləndirir.
Açıq hava fəaliyyətləri öyrənməni stimullaşdıraraq idrakın inkişafına zəmin yaradır. Təbiəti müşahidə etmək, araşdırmaq və sərbəst oyun oynamaq uşaqların məntiqi təfəkkürünü, yaradıcılığını inkişaf etdirir və məktəb təliminə hazırlaşmasını dəstəkləyir.
Bu oyunların uşaqlara faydaları ətraflı şəkildə aşağıda verilmişdir:

### 1. Fiziki inkişaf

**Motor bacarıqlar:** Riskli oyunlar (məsələn, ağaca dırmaşma, daşlar üzərində tullanma) böyük və və kiçik motor bacarıqlarını inkişaf etdirir, tarazlıq və koordinasiyanı gücləndirir.

**Fiziki aktivlik:** Bu oyunlar uşaqlarda fiziki fəallığı artırır, piylənmə riskini azaldır və sağlam həyat tərzini təşviq edir.

**Dözümlülük:** Təpədən yuvarlanma və ya maneələr üzərindən keçmə kimi fəaliyyətlər ətraf mühitdən qaynaqlanan streslə və ya xəsarət alma riski ilə qarşılaşdıqda bədənin uyğunlaşmaq, bərpa etmə bacarıqlarını inkişaf etdirir.

### 2. Sosial-emosional inkişaf

**Özünəinam:** Bu oyunlar (məsələn, aşağı budaqlı ağaca dırmaşma) vasitəsilə uşaqlar çətinliklərin öhdəsindən təkbaşına gəlməyi öyrənirlər. Nəticədə onların özünə inamı və müstəqilliyi artır.

**Psixoloji dayanıqlılıq:** Oyunlar uşaqlara uğursuzluqla üzləşməyi və yenidən cəhd etməyi öyrədir, bu da emosional dayanıqlılığı artırır. Məsələn, ağaca dırmaşarkən düşüb yenidən cəhd etmək uşaqlarda səbir və əzmkarlıq formalaşdırır.

**Qorxu ilə mübarizə:** Uşaqlar riskli vəziyyətlərdə qorxularını idarə etməyi və öz emosiyalarını tənzimləməyi öyrənirlər.

**Əməkdaşlıq:** Qrup halında riskli oyunlar (məsələn, "xəzinə axtarışı"nda maneələri aşmaq) komandada işləmək bacarığını və empatiyanı inkişaf etdirir.

### 3. İdrakın inkişafı

**Risk qiymətləndirmə bacarığı:** Uşaqlar açıq hava oyunları zamanı təhlükə və fürsətləri qiymətləndirməyi öyrənirlər (məsələn, "Bu daşa tullanmaq təhlükəsizdirmi?"). Bu onların müstəqil qərarvermə bacarıqlarını gücləndirir.

**Problem həlletmə:** Açıq hava oyunları (məsələn, maneələr üzərindən keçmə) məntiqi təfəkkürü və yaradıcı həll yollarını stimullaşdırır.

**Diqqət və konsentrasiya:** Təbiətdəki fəaliyyətlər (məsələn, tarazlıq saxlama) uşaqlarda diqqəti cəmləməyi və diqqətlilik (şüurlu yanaşma) bacarıqlarını artırır.

### 4. Təbiətlə əlaqə

Təbiətdə riskli oyunlar (məsələn, gölməçədə oynamaq, təpədən yuvarlanma) uşaqların təbiətə hörmətini və ətraf mühitə marağını artırır, ekoloji tərbiyəni təşviq edir.

## Açıq hava oyunlarının yaş qruplarına uyğunlaşdırılması

Açıq havada oyunlarında edilən hərəkətlər yaşa görə nəzərə alınmalı və nizamlanmalıdır. Açıq havada oyunları zamanı edilən hərəkətlər aşağıdakı tələblərə uyğunlaşdırılmalıdır.

1–2 yaş: sensor yönümlü sadə və təhlükəsiz oyun-fəaliyyətlər (yarpağa/quma/suya toxunma, ot üzərində gəzmə), aşağı hündürlükdə tarazlığı inkişaf etdirən oyunlar (yumşaq zəmin, yaxın nəzarət, ≤20 sm), yumşaq zəmində yüngül yuvarlanma.

3–4 yaş: sosial və əməkdaşlıq oyunları (zibil toplama, təbiətdə "xəzinə" və rəng axtarışı, qrup gəzintisi), kiçik təpədən yuvarlanma (≤1 m; ot zəmin), dayaz gölməçədə oyun (≤10 sm; sürüşməyən səth), sabit maneələr üzərindən addımlama.

4–5 yaş: mürəkkəb və yaradıcı oyun-tapşırıqlar (daşlarla sayma, təbiətdə rəsm, nağıl qurma, heyvan izlərinin tanınması), ağacın aşağı budağınadırmaşma (möhkəm budaq; ≤1 m; yumşaq zəmin), daşlar üzərində tullanma, "maneə marşrutu".

### Təhlükə riskinin idarə olunması

Təhlükəsizliyin nəzərə alınması açıq hava fəaliyyətlərinin prioritet tədbirlərindən biridir. Açıq hava oyunları uşaqlar üçün müəyyən səviyyədə fiziki və ya emosional risk ehtiva edən, lakin nəzarət olunan mühitdə təşkil edilən fəaliyyətlərdir.

Təhlükəsizlik tədbirləri: sahə yoxlaması (kəskin əşyalar, sürüşkən səthlər, su dərinliyi, sərhədlər), yaşa görə yetkin-uşaq nisbəti, aydın qaydalar və vizual işarələr.

Təhlükə riskinin qiymətləndirilməsi və təhlükəsizlik tədbirinin səmərəli olması üçün məktəbəqədər müəssisədə Risk planı nümunəsindən istifadə edilməsi tövsiyə edilir.

## *Yaşa uyğun açıq hava oyunu nümunələri*

**“Çay kimi axırıq” (bütün yaş qrupları üçün)**

**Necə oynanılır: uşaqlar bir istiqamətdə yuvarlanır.**
**Hədəf:** böyük motor bacarıqlar
**Müddət:** 1–2 yaş: 5–7 dəq.; 3–4 yaş: 8–10 dəq.; 4–5 yaş: 10–12 dəq.)
**Məkan/material:** yumşaq zəmin, sərhəd xətləri - yarpaq, daş, rəngli iplər və s.

**Təhlükəsizlik:** yumşaq zəmin, tək-tək oynayırlar (daha təhlükəsiz və səmərəli olması üçün), yaşa uyğun olaraq yaxından nəzarət və qaydaları xatırlatma, “Bir-bir keçirik”, “Sərhədi keçmirik”, “Deyəndə dayanırıq”.
**Diferensiasiya:** asan versiyası: əl-ələ tutub əyilmək, gəzmək

**1–2 yaş (sensor fokus), qısa müddət, tez-tez fasilə; 3–5 uşaq; yumşaq ot/qum.**
**“Yarpaq tap, adını de”**
**Necə oynanılır:** müəllim 2–3 yarpaq göstərir → uşaq oxşar yarpağı tapır → “yaşıl/iri/yumşaq” sözlərini təkrarlayır.
**Hədəf:** sensor təcrübə, söz ehtiyatı, diqqət.
**Təhlükəsizlik:** sürüşkən səthi yoxla; xırda, kəskin əşyaların olmamasına nəzarət etmək.

**“Suya şappırtı” (dayaz qabda)**

**Necə oynanılır:** uşaq əllə (rezin çəkmə geyindikdə ayaqları ilə də olar) suya toxunur, səs və sıçrama müşahidə edir.

**Hədəf:** sensor inteqrasiya, səbəb-nəticə.

**Təhlükəsizlik:** Uşaqlara “su ilə oynayarkən qaçmamaq” və “suyu başqasına atmaq olmaz” qaydası əvvəlcədən izah edilir. Yalnız dayaz su (2–3 sm-dən artıq yox) uşaqların qolunu çırmaladıqda paltarlarını islatmır. Məkanın yeri sürüşkən olmamalıdır. Oyun bitdikdən sonra (oyunun axışı itməsin və uşaqların diqqəti dağılmasın deyə) uşaqların əlləri və ayaqları dəsmal və ya salfetlə dərhal qurudulur.

**“Toxun və get” mini-marşrut**

**Necə oynanılır:** hamar daş/şam qozası/yarpaq zolağı boyunca addımlayır, hər stansiyada toxunur.

**Hədəf:** böyük motor, tarazlıq.

**Təhlükəsizlik:** stansiyalar arası məsafə qısa; oyuna böyüklər tərəfindən kənardan nəzarət edilir.

**3–4 yaş (əməkdaşlıq və qayda), 4–6 uşaq; sərhədlər lentlə işarələnir.**

**“Rəng ovçuları”**

**Necə oynanılır:** hər qrupa 1 rəng kartı verilir → təbiətdə həmin rəngi tapıb gətirirlər.

**Hədəf:** müşahidə, əməkdaşlıq, təsnifat.

**Təhlükəsizlik:** sərhəd daxilində axtarış; mən deyəndə “gəl, qaç”

**“Xəzinə axtarışı” (təbiət əşyaları)**

**Necə oynanılır:** siyahıdakı 3 əşyanı (məs., çubuq, yumru daş, sarı yarpaq) kollektiv toplayırlar.

**Hədəf:** problem həlletmə, dil, sıra gözləmə.

**Təhlükəsizlik:** kəskin/kirli əşyalara yox; “yığ, göstər, qutuya qoy” komandaları ilə müşayiət edilir.

**“Körpü keçidi” (sabit maneələr)**

**Necə oynanılır:** aşağı taxta/daş xətti üzərindən növbə ilə keçirlər.
**Hədəf:** tarazlıq, özünəinam.
**Təhlükəsizlik**: yumşaq zəmin; “bir-bir” qaydası.

**4–5 yaş (yaradıcı və mürəkkəb), 5–8 uşaq; marşrut/stansiyalar əvvəlcədən müəyyən edilir.**

**“Daşlarla say zolağı”**

**Necə oynanılır:** 1-dən 10-a qədər daşlar ardıcıllıqla düzülür, uşaq tullanaraq sayır.
**Hədəf:** riyazi ardıcıllıq, koordinasiya.
**Təhlükəsizlik:** daşlar sabit; boşluqlar bərabər.

**“İz tap” (heyvan izləri/şəkillər)**

**Necə oynanılır:** marşrut boyunca cütləşdirirlər.
**Hədəf:** məntiqi əlaqə, yaddaş.
**Təhlükəsizlik:** sərhəd xətləri; sürətli qaçış yoxdur.

**“Nağıl marşrutu”**

**Necə oynanılır:** 3 stansiya: “külək kimi qaç”, “daşları 5-ə qədər say”, “yarpaqla şəkil yarat” → sonda hekayəni danış.
**Hədəf:** ardıcıllıq, yaradıcılıq, dil.

**Təhlükəsizlik:** hər stansiyada nəzarətçi; keçidlər aydın.
**Diferensiasiya nümunəsi:** Tarazlıq çətin olarsa, xəttin enini genişləndir; çox asandırsa, ziqzaq. Sürətli uşaq üçün əlavə missiya (“həmin rəngdən 2-sini tap”).

## Mövzu 2. Planlaşdırma

Açıq havada oyunlar uşaqların yaş və inkişaf səviyyəsinə uyğun planlaşdırılmalıdır. 1-2 yaş qrupu üçün sadə sensor fəaliyyətlər (məsələn, yarpaqlara toxunma və ya su ilə oynamaq) tövsiyə olunur, çünki bu, motor bacarıqların və idrakın inkişafını dəstəkləyir.
3-4 yaş qrupu üçün sosial oyunlar (məsələn, təbiətdə zibil toplama və ya qrup gəzintiləri) uyğundur, bu fəaliyyətlər məsuliyyət hissi və əməkdaşlığı inkişaf etdirir. 4-5 yaş qrupu üçün mürəkkəb tapşırıqlar (məsələn, təbiətdə ov və ya daşlarla sayma oyunları) planlaşdırın, bu, idrakı və ekoloji tərbiyəni gücləndirir.
Məktəbəqədər təhsil müəssisəsində təlimin səmərəli təşkili işin düzgün planlaşdırılmasından başlayır. Düzgün planlaşdırma üçün yerinə yetiriləcək təlim işlərinin əvvəlcədən layihələndirilməsi xüsusi didaktik əhəmiyyət kəsb edir. Məktəbəqədər təhsil müəssisəsində planlaşdırmanın, əsasən, aşağıdakı iki növündən istifadə edilməsi zəruri hesab edilir:

### 1. İllik planlaşdırma

İllik planlaşdırma standartların reallaşması məqsədilə inkişaf sahələrinə əsasən hər yaş qrupu üzrə aparılır. Məktəbəqədər təhsil proqramının (kurikulumun) əsas istiqamətlərinə müvafiq olaraq müəyyənləşdirilmiş həmin sahələrin planlaşdırılmasında inteqrativlik prinsipi ciddi şəkildə gözlənilir.

İllik (perspektiv) planlaşdırma aşağıdakı nümunəvi sxem üzrə aparılır:

| Standartlar | Məşğələ | Mövzular | İnteqrasiya | Resurslar | Tarix |
|---|---|---|---|---|---|
| | | | | | |

### 2. Həftəlik planlaşdırma

Həftəlik planlaşdırma altstandartların həyata keçirilməsi məqsədilə ayrı-ayrı məşğələlər və məşğələdənkənar fəaliyyət sahələri (oyun, gəzinti, əyləncə, sağlamlaşdırıcı tədbirlər və s.) üzrə aparılır. Cari planlaşdırma aparılarkən məşğələnin mərhələlərinə diqqət yetirilməlidir.

Həftəlik (cari) planlaşdırma aşağıdakı nümunəvi sxem üzrə aparılır:

| Standartlar | Mövzu | Məqsəd | İnteqrasiya | İş forması | İş üsulu | Resurslar |
|---|---|---|---|---|---|---|
| | | | | | | |

**Planlaşdırmada inteqrasiya.** Məktəbəqədər təhsildə təlimin planlaşdırılması və təşkilində əsas prinsiplərdən biri inteqrasiyadır. Sadə dildə bu, müxtəlif inkişaf sahələrini və ya mövzuları bir-biri ilə əlaqələndirərək vahid və mənalı bir təlim prosesi yaratmaq deməkdir. Uşaqların öyrənməsini daha maraqlı, bütöv və effektiv etmək üçün mövzular bir-birinə bağlanır.
Planlaşdırmada inteqrasiyanın əhəmiyyəti ondan ibarətdir ki, uşaqlar bilikləri ayrı-ayrı parçalar kimi deyil, bir-biri ilə əlaqəli, bütöv şəkildə öyrənirlər.

**İnteqrativliyin iki əsas növü vardır: İnkişaf sahəsi daxilində və inkişaf sahələri arasında inteqrasiya**

**İnkişaf sahəsi daxilində inteqrasiya** eyni inkişaf sahəsinin müxtəlif alt sahələrini birləşdirmək deməkdir. Məsələn, idrakın inkişafı sahəsində "Nitq inkişafı" mövzusu ilə "Ətraf aləmlə tanışlıq" və ya "Məntiqi təfəkkür" mövzuları əlaqələndirilir. Uşaqlar heyvanlar haqqında danışarkən (nitq inkişafı) onların yaşadıqları yerləri də öyrənirlər (ətraf aləmlə tanışlıq).

**Nümunə:**

**"Meyvələr" mövzusu *(idrakın inkişafı sahəsi)***

Uşaqlar meyvələrin adlarını öyrənirlər (nitq inkişafı), onların harada bitdiyini araşdırırlar (ətraf aləmlə tanışlıq) və sayma bacarıqlarını inkişaf etdirirlər (məntiqi və riyazi təfəkkür, məsələn, "3 alma, 2 armud").

**Əhəmiyyəti:** Eyni inkişaf sahəsindəki mövzular bir-birini tamamlayır və uşağın bilikləri daha da dərinləşir.

**İnkişaf sahələri arasında inteqrasiya** fərqli inkişaf sahələrini birləşdirərək təlimi daha çoxşaxəli etmək deməkdir. Məsələn, estetik-yaradıcı inkişaf sahəsində rəsm çəkmək (təsviri fəaliyyət), fiziki inkişaf (əl hərəkətləri) və idrakın inkişafı (rəngləri tanıma) ilə əlaqələndirilir. Uşaqlar rəsm çəkərkən həm əl bacarıqlarını inkişaf etdirir, həm də rənglər haqqında öyrənirlər.
**Əhəmiyyəti:** Uşaqlar bir fəaliyyət vasitəsilə müxtəlif bacarıqlarını inkişaf etdirirlər. Bir mövzuda birdən çox inkişaf sahəsinə toxunmaq vaxta qənaət edir və öyrənməni gücləndirir.

**Nümunə:**

**"Meyvələr" mövzusu *(estetik-yaradıcı inkişaf sahəsi)***

Meyvələrin rəsmini çəkirlər, rəsm çəkərkən uşaqların kiçik motor bacarıqları güclənir (fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik inkişaf sahəsi). Karandaşları digər uşaqlarla bölüşür, əməkdaşlıq edir, (sosial-emosional inkişaf sahəsi), meyvələrin adlarını söyləyir, hansı formada olduqlarını və ya dadını müzakirə edirlər. Bu da uşaqların riyazi və nitq

Planlaşdırmada **ardıcıllıq prinsipi** məktəbəqədər təhsildə təlimin planlaşdırılmasında mövzuların düzgün sıraya salınması üçün istifadə olunur.
**Psixoloji ardıcıllıq (sadədən mürəkkəbə):** Uşaqların hazırkı bilik və bacarıqlarına uyğun olaraq mövzular sadədən başlayır, tədricən mürəkkəbləşir. Məsələn: Əvvəlcə sadə rəsmlər çəkməyi öyrənirlər (dairə, xətt), sonra mürəkkəb şəkillərə (ev, ağac) keçirlər.
**Əhəmiyyəti:** Uşaqlar öz inkişaf səviyyələrinə uyğun bacarıqları mənimsəməyə qadirdirlər. Psixoloji baxımdan özlərinə inamlı olmaları və nailiyyətlər əldə etmələri onların öyrənmə vəaraşdırma motivasiyasını artırır.

**Məntiqi ardıcıllıq (ümumidən xüsusiyə):** Bu prinsipə görə, mövzular bir-birini tamamlamalı və məntiqli şəkildə bir-birinə bağlanmalıdır. Əvvəlcə ümumi biliklər və bacarıqlar öyrədilir, sonra daha xüsusi detallara keçilir. Məsələn: Əvvəlcə "təbiət" haqqında ümumi danışılır (meşə, çay, dağ), sonra xüsusi olaraq "həmişəyaşıl və meyvəli meşələri tapaq" oyunu keçilir.
**Əhəmiyyəti:** Mövzular əlaqəli öyrədildikdə uşaqlarda dünyagörüş, intuitiv olaraq bütöv, əlaqəli düşünmə bacarığı formalaşır. Bu da öz növbəsində uşaqların öyrədilməsini daha səmərəli edir.
**Xronoloji ardıcıllıq (zamana uyğunluq):** Mövzular zamana və mövsümə uyğun seçilir ki, uşaqlar üçün daha maraqlı və yaddaqalan olur. Məsələn: Payızda "Payız yarpaqları" mövzusu, qışda "Qar dənələri" mövzusu keçilir.
**Əhəmiyyəti:** Uşaqlar ətrafda gördükləri hadisələrlə mövzuları əlaqələndirirlər ki, bu da uşaqlar üçün daha maraqlı və yaddaqalan olur.

## Mövzu 3. Dəyərləndirmənin növləri və Portfolio metodu

Tərbiyəçi-müəllim bir uşağı düzgün dəyərləndirmək üçün onun fəaliyyətinin mahiyyətini dərk etməlidir. Çünki hər bir uşaq öyrəndiyini və bacarıqlarını fərqli yolla nümayiş etdirir. Uşağın nəticələri başqa uşaqlarla yox, özünün əvvəlki nailiyyətləri ilə müqayisə edilir. Bu, inkişafın dinamik izlənməsi üçün əsasdır.

Dəyərləndirmə:

- Uşağın bilmədiyini yox, bildiyini və bacardığını ortaya çıxarmalıdır;
- Müxtəlif formalı sübutlara (müşahidə, söhbət, məhsul, oyun nəticələri) əsaslanaraq aparılmalıdır;
- Uşağın fərdi öyrənmə üslubuna, ehtiyaclarına və inkişaf mərhələsinə həssas yanaşmanı əks etdirməlidir;
- Müəllimə tətbiq etdiyi strategiyaların səmərəliliyini görmək və lazım gəldikdə dəyişiklik etmək imkanı verməlidir;
- Müsbət emosional şəraitdə aparılmalıdır, uşağın özünə inamını möhkəmləndirməli, mənfi hisslər yaratmamalıdır.

Dəyərləndirmənin növləri.

Aşağıdakı nümunələrlə dəyərləndirmə alətlərinin istifadəsində yarana biləcək yanlışlıqlar analiz edilir. Birinci nümunədə diaqnostik dəyərləndirmə göstərilmişdir. Orada tez-tez rastgəlinən yanlış nümunələr analiz edilir.



Diaqnostik qiymətləndirmə

Diaqnostik(ilkin) qiymətləndirmə zamanı uşaqlar haqqında toplanan məlumat onların inkişafında mövcud olan fərqləri aşkar edir və təlimin planlaşdırılması üçün şərait yaradır .Diaqnostik mərhələdə toplanan məlumatlar gələcəkdə uşağın inkişafının izlənilməsi və müqayisələrin aparılması üçün indikatorlar (göstəricilər ) yaradır.

| S/S | Meyarlar | Tərbiyəçi müəllimlər | | | Valideynlər | | |
|---|---|---|---|---|---|---|---|
| | | İlin əvvəli | | | İlin əvvəli | | |
| | | Yerinə yetirilir | Qismən yerinə yetirilir | Yerinə yetirmir | Yerinə yetirilir | Qismən yerinə yetirilir | Yerinə yetirmir |
| 1. | Uşağın sağlamlığı | + | | | + | | |
| 2. | Uşağın əqli fəaliyyətinin səviyyəsi | + | | | + | | |
| 3. | Uşağın müstəqilliyi | + | | | + | | |
| 4. | Uşağın təhliletmə, ümumləşdirmə bacarıq və vərdişlərinin səviyyəsi | + | | | + | | |
| 5. | Uşağın şifahi nitqinin inkişafı | + | | | + | | |
| 6. | Uşağın koolektib və qrup tərkibində çalışmaq vərdişlərinin səviyyəsi | + | | | + | | |
| 7. | Təlim vəsaitləri ilə işləmək bacarığı | + | | | + | | |

Burada “Uşağın sağlamlığı” və ya “əqli səviyyəsi” kimi çox ümumi, ölçülməsi çətin olan göstəricilər yazılmışdır. Bu suallar nə tərbiyəçi-müəllimə praktik informasiya verir, nə də valideyni məlumatlandırır.

- Səhv yanaşma:

“Uşağın sağlamlığı” meyarı “yerinə yetirir / yetirmir” cavabı vermir.

- Düzgün yanaşma:

Əgər tərbiyəçi-müəllimdə uşağın sağlamlığı haqqında qeydə ehtiyac yaranırsa, onu uşağın nə etdiyi ilə əlaqələndirib səbəb kimi göstərməlidir. Bu zaman  tərbriyəçi-müəllim uşağın sağlamlığı haqqında məlumatı təlimin təşkilində daha səmərəli istifadə edə bilir. Məsələn: Tərbiyəçi-müəllim uşağın məşğələlərdə mütəmadi iştirak edib-etmədiyini göstərərsə, məlumat daha praktik və səmərəli olar. O aşağıdakı meyarla göstərilə bilər:

“Uşaq  məşğələlərə vaxtında və mütəmadi gəlir” (Əgər gəlmirsə, səbəb: sağlamlıq, gec yatmaq və s. qeyd olunur).

**Beləliklə, diaqnostika uşağın real bacarığını göstərməli, valideyni çaşdırmamalı, tərbiyəçi-müəllimə isə uşağın göstəricilərinin səbəbini tapmağa və konkret plan qurmağa imkanı verməlidir.**

**Uşaq inkişafının izlənilməsi** müntəzəm şəkildə, müəyyən intervallar ilə gündəlikdə aparılan dəyərləndirmədir. Məqsəd “Uşaqlar necə öyrənir və inkişaf edirlər” sualına cavab vermək və inkişafının cari mərhələsini müəyyənləşdirməkdir. Bunun üçün  formativ inkişaf səviyyəsi cədvəllərindən də istifadə olunur.

İnkişaf səviyyəsi cədvəllərinin necə işlənilməsinə diqqət yetirək.

## İnkişaf səviyyəsi cədvəlləri



Uşaqların inkişaf səviyyəsinin qiymətləndirilməsinə dair nümunə

*Formativ (davamlı) qiymətləndirmə üçün yaş və inkişaf səviyyəsi cədvəli*

**Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik. 5-6 yaş**

| Meyarlar | Diaqnostik | | | II rüb | | | III rüb | | | IV rüb | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir |
| Qaməti düz saxlamaqla istiqaməti və tempi dəyişərək yeriş və qaçış yerinə yetirir. | | | + | | | | | | | | | |
| Müxtəlif əşyaların üstü, altı və arası ilə sürünmə hərəkətləri yerinə yetirir. | | + | | | | | | | | | | |
| Məhdudlaşmış sədd üzərində müvazinəti saxlamaqla yeriş və qaçış, gimnastika nərdivanına pillə-pillə dırmanma hərəkətləri yerinə yetirir. | | | + | | | | | | | | | |
| Kürəciyi diyirlədir, qum kisəciyini və topu hədəfə atır. | | | + | | | | | | | | | |
| Yerində, uzununa, müxtəlif istiqamətlərə doğru və ip üzərindən tullanır. | | | + | | | | | | | | | |
| Topu yerə vuraraq irəliləyir; | | | + | | | | | | | | | |
| Kiçik motorika hərəkətlərini (şəkil çəkir, konturdan kənara | | | | | | | | | | | | |

+ Yanlış yanaşma: sadəcə bütün standartları köçürüb izləmək.

✅ Düzgün yanaşma: mövcud təlim mövzusu və uşağın real inkişaf istiqamətinə uyğun konkret meyarların qoyulması

**Konkret meyarlar** seçmək. Məsələn, (fəsillər mövzusu):

1. Uşaq yaz, yay, payız, qış adlarını söyləyir;
2. Onları fəsillər anlayışında qruplaşdırır;
3. Şəkillərdə göstərilən fəsli müəyyənləşdirir;
4. Nağıl və şeirlərdə hansı fəsildən danışıldığını ayırd edir.

Bu zaman müəllim uşağın fəsilləri mənimsəyib, mənimsəmədiyini dəqiq görür. Əgər uşaq fəsilləri mənimsəyibsə, hara qədər mənimsədiyini, harada çətinlik çəkdiyini görür və bu zaman uşağın inkişafı üçün metodlar seçə bilir.

**Yekun hesabat (3 və 6 yaş):**

Yekun hesabat uşağın növbəti mərhələyə keçidi üçün "təlim pasportu" rolunu oynayır.

- Uşağın güclü tərəfləri və onu uğurlu edən üsullar qeyd olunur;
- Uşağın ehtiyacı olan dəstək və hansı yanaşmaların işə yaradığı göstərilir;

Qeyd: Yeni müəllimə təhvil verərkən etik yanaşma: uşağı damğalamamalı, əksinə onun inkişaf potensialı vurğulanmalıdır.

Beləliklə, dəyərləndirmə valideynlərlə əməkdaşlıq əlaqəsini gücləndirir. Onlara övladlarının inkişaf dinamikasını izləmək və bu istiqamətdə dəstək olmaq imkanı yaradır. Yanlış meyarlar isə valideyni çaşdırır və tərbiyəçi-müəllimlə münasibəti gərginləşdirir ("mənim uşağım oxuya bilmir – sizin uşağınızdadır problem" kimi destruktiv yanaşmaya gətirib çıxara bilər).

Tərbiyəçi-müəllim mütəmadi olaraq,*"Mən niyə bunu soruşuram? Bu cavab uşağın inkişafı haqqında mənə nə deyəcək? Mən onu dərsimdə necə istifadə edəcəyəm?"* kimi sualları təlim prosesində özünə verməlidir.

Dəyərləndirmə – sadəcə yoxlama deyil, uşağın bütün inkişafını izləmək, dəstəkləmək və gələcək təlim üçün yol xəritəsi qurmaq məqsədi daşıyır.

Məktəbəqədər təhsildə dəyərləndirmə yalnız "uşaq nəyi bilmir?"i yox, **"uşaq nəyi öyrənib və haraya doğru irəliləyir?"** sualını cavablandırmalıdır. Biz dərsdə nə qədər müxtəlif və rəngarəng tapşırıq versək də, onların **real işləkliyi** uşağın **dəyişməsində** görünür. Ona görə müəllim üçün uşağın inkişaf **dinamikasını fasiləsiz izləmək** və bu izləməni **peşəkar dəyərləndirmə üsulları ilə** aparmaq həyati əhəmiyyətə malikdir. **Portfolio** bu peşəkar dəyərləndirmə üsullarının mərkəzində dayanır.

**Portfolio nədir və nə üçün lazımdır?**

**Portfolio** uşağın inkişaf yolunu göstərən "qovluq"dur: əl işləri, hekayələr, təsviri fəaliyyət

nümunələri, foto/videolar (oyun, rol ifası), **ailə məlumatları**, **gündəlik/ təsviri qeydlər**, **iş nümunələri**, **inkişaf səviyyəsi cədvəlləri** və **yekun hesabat** – hamısı **tək yerdə** və müəyyən **vaxt ardıcıllığı ilə** toplanır.

**Portfolio nəyi göstərir?**

- Uşağın **mövcud bacarıqları** və **güclü tərəflərini;**
- **İrəliləyiş trayektoriyasını** (bu gün - sabah);
- Müəllim üçün **təlimin refleksiyasını** (nəyi dəyişim?);
- Valideyn üçün **şəffaflıq** və **maraqlandırıcı isbatları;**

**Əsas prinsip:** Uşaq **başqalarının nəticələri ilə yox**, **özünün əvvəlki nəticələri** ilə müqayisə edilməlidir.

**Portfolioya daxil edilir:**

**Ailə məlumatı:** sorğular, qısa qeyd: uşağın maraqları, gündəlik rejimi və s.

**Diaqnostik, İnkişaf səviyyəsi cədvəlləri və Yekun hesabat (**3/6 yaş **)**

**Qızıl qayda: Hər sübutun üzərində tarix, kontekst və qısa şərh olmalıdır.**

**Təsviri/gündəlik qeydlər:** Günün sonunda müəllimin 2–3 cümləlik müşahidəsi (“03.10.2025. kəsib-yapışdırmada qayçını 3 barmaqla tutdu, kömək istəmədi”, “03.11. 2025, “Fəsillər” mövzusu, şəkildən fəsli müəyyən etdi, “yarpaq sarı olanda payız olur” dedi”). **Qeyd: Təsvir konkret davranışa istinad edilir.**

**İş nümunələri:** rəsm, kəs-yapışdır, naxış, kublarla quruluş, yarımçıq işi tamamlama, quraşdırma və s. **(**fotonun kollaj formasında fəaliyyətin gedişinin, sosial ünsiyyətin, nitqin, motor bacarıqların kontekstində göstərilməsi).





(Foto kollaj kimi toplandıqda daha az yer tutur).

**Qeyd: Eyni bacarığın zamanla dəyişən iş nümunələrini** mütləq ardıcıllıqla toplayır, inkişaf dinamikasını izləyirik.

**Portfolioda inkişaf trayektoriyasını necə göstəririk? 1. addım** Müəllim uşaqların əl işinə baxır, analiz edir, **2. addım** dəyərləndirir, **3. addım** dəstək alqoritmini qurur. Müəyyən vaxtdan sonra həmin tapşırığı yenidən uşağa verir və yenə həmin məntiqi arıcıllıqla işini davam etdirir. **Nümunə:** "Öz adını yazmaq" bacarığının inkişafının izlənilməsi




**Nümunə 1:**

**1.addım:** Qələmtutma zəif, xətt sərt və sətrə yerləşdirmə çətindir.

**2.addım: kiçik motorika** və **məkan qavrayışı** dəstəyinə ehtiyac var.

**3.addım:** Tərbiyəçi-müəllim müdaxiləsi: kağızın solundan sağa **nöqtə yolu**, 1 xətt boyunca **şablon düzmə**, plastilinlə oynamaq və digər fəaliyyətlərlə **barmaq əzələlərini** gücləndirmə.




**Nümunə 2:**

**1.addım: Əl hərəkətini daha yaxşı idarə etdiyi üçün** xətti yumşalıb, hərflərin sətirdə istiqaməti daha düzgündür.

**2.addım:** Hərflərin yazılışı **imitasiya** mərhələsindədir, yəni eyni istiqamətdə **təkrar edilib və hərflərə oxşayır.**

**3.addım:** Tərbiyəçi-müəllim: ad şablonu, "adını tap- yapışdır", **adını eyni hündürlükdə yaza bilməsi üçün üçün boş xətt üsulundan istifadə.**




**Nümunə 3:**
**1.addım:** Sabit xətt, seçilən hərflər,
**2.addım: Yazı mərhələsinə** keçid.
**3.addım:** Tərbiyəçi-müəllim: gündəlik **cızma məşqləri** ("Rəsminin altına adını yaz"), **müstəqillik** və **motivasiyanın** artırılması.

**Tərbiyəçi-müəllim bu ardıcıllığı izləməklə təkcə yazı yox, eyni zamanda psixomotor, məkan və nitq bacarıqlarının inkişafını da müşahidə edir və uşağın irəliləyişini addım-addım növbəti didaktik dəstəklə planlayır**

**Portfolio ilə işləmək üçün 6 praktik tövsiyə:**
1. **Planla:** Ayın/mövzunun 2–3 hədəf meyarını seç ("Fəsilləri adlandırır; şəkillərdən fəsli müəyyən edir; hekayədə fəsli tapır");
2. **Topla:** Həftə boyu ən az **2 nümunə** (iş nümunəsi +təsvir/foto);
3. **Etiketlə:** Tarix, kontekst, qısa şərh ("necə öyrəndi?");
4. **Analiz et:** "Nə dəyişdi? Nə çatmır? Niyə?" – müəllim refleksiyası (2 cümlə);
5. **Tənzimlə:** Növbəti həftə üçün **kiçik dəyişiklik** (metod, material, qrup tərkibi);
6. **Paylaş:** Valideynlə qısa görüş və ya səsli izah (30–60 san. audio), uşağın səsi ("mən nə öyrəndim?").

Valideynlə əməkdaşlıq: portfolionu "şəffaf pəncərə"yə çevirin. Ayda 1 dəfə mini-baxış: 5 dəq. təqdimat (2 iş nümunəsi + 1 foto + 1 qısa audio).

Valideyn üçün ev-bağça körpüsü: "Ev tapşırığı deyil, ev müşahidəsi" – "Uşağınız evdə "payız" sözünü haralarda işlətdi? 1 cümləlik səs yazın"

Fərdi məlumatların qorunması: yalnız öz uşağının materialı istisna olmaqla digər uşaqlarla bağlı məlumatı icazəsiz paylaşmaq olmaz (məsələn, sosial şəbəkələrdə və s.).

| Portfolio səmərəli olur, əgər: | Portfolio səmərəsiz olur, əgər: |
|---|---|
| • Tarix + kontekst + qısa şərh yazın;<br>• Həftəlik 2 sübutla yetinin, keyfiyyəti qoruyun;<br>• “Uşağın səsi”nə yer ayırın (məs: “Mən bunu niyə belə etdim?”);<br>• Hər ay meyar  pilləsini yeniləyin. | • Kağız yığımı (məqsədsiz toplu);<br>• Başqa uşaqlarla müqayisə;<br>• “Ümumi” meyarlar (“əqli səviyyə”, “sağlamlıq” kimi meyarlar);<br>• Yazısız foto yığımı (şərhsiz vizual sübut dəyərsizləşir). |

Məktəbəqədər təhsil üzrə mütəxəssis Fərqanə Seyidli tərbiyəçi-müəllimlərə dəstək məqsədilə praktik dəyərləndirmə “sticker”lərini təklif edir:

**Təsviri/gündəlik “sticker”**

(Portfolio A4 kağızlarına tarix sırası ilə yapışdırın, fotolar əlavə edin, rübün/ilin sonunda maraqlı iş nümunələri, xoş və pozitiv foto illüstrasiyalar, kitab hazırlayın):

**Tarix/Mövzu:** 2025-03-12 / Fəsillər;
**Müşahidə:** Rəsm zamanı “yarpaqlar sarıdır, ona görə payızdır” dedi;
**Nəticə:** Səbəb-nəticə əlaqəsi qurur;
**Planım:** Gələn dəfə şəkildən fəsli 2 əlamətlə izah edəcəyəm və ondan soruşacağam.

**İnkişafın izlənilməsi mini cədvəl “sticker”i** (hər iş nümunəsinin üzərinə yapışdırın):

- Fəsillərin adını sadalayır;
- Şəkildən fəsli ayırd edir;
- Hekayədə fəsli tapır (səbəbi deyir);
- Qeyd: ___________

## Mövzu 4. Valideynlərlə əməkdaşlıq

Dr. Joyce Episteinin təklif etdiyi UVM modelində məktəbəqədər təhsil müəssisələrinin valideynlər ilə əməkdaşlığının 6 növü qeyd edilir:

- **Valideynlik:** Valideynləri baxıcı və tərbiyəçi rolunda dəstəkləmək;
- **Ünsiyyət:** Effektiv valideyn-bağça ünsiyyətinin təşviq edilməsi;
- **Evdə öyrənmə:** Məktəbdən kənarda öyrənmə üçün resursların təmin edilməsi;
- **Könüllülük və qərarvermə:** Məktəbəqədər müəssisənin qərarverici işlərinə və müxtəlif fəaliyyətlərinə valideynlərin cəlb edilməsi;
- **İcma ilə əməkdaşlıq:** İcma təşkilatları ilə tərəfdaşlıq əlaqələrinin qurulması.

**Tərbiyəçi-müəllimin valideynlərlə əməkdaşlıq formaları:**

- Valideyn seminarları
- Ev-bağça fəaliyyətləri
- Tədbirlər
- Fərdi söhbət

**Valideynlərlə əməkdaşlığın məktəbəqədər təhsil müəssisəsinə faydaları:**

✓ Tərbiyəçi-müəllim uşaqların inkişafını təmin edən səmərəli təlim prosesini qurur və bu işi, məsuliyyəti valideynlərlə paylaşa bilir;

✓ Valideynlərin uşaqları ilə olan münasibətlərini görür;

✓ Məktəbəqədər təhsilin genişləndirilməsinə kömək edir;

✓ Məktəbəqədər təhsil prosesinin davamlılığını, yəni bağçadan kənarda da davam etməsini təmin edir.

**Valideynlərlə əməkdaşlığın ailələrə faydaları:**

✓ Uşaqları barədə daha çox məlumat alırlar;

✓ Övladlarının başqaları ilə ünsiyyətini müşahidə edirlər;

✓ Övladlarının zəif və güclü tərəflərini öyrənirlər;

✓ Uşaqların bağçada öyrəndikləri ilə evdə baş verənlər arasında daha yaxşı əlaqə qura bilirlər.

**Valideynlərlə əməkdaşlığın uşaqlara faydaları:**

✓ Ata, ananın bağça ilə əlaqəsi uşaqların emosional inkişafına təsir edir;

✓ Uşaqlar məktəbəqədər müəssisəni doğma və təhlükəsiz məkan kimi qiymətləndirirlər;

✓ Uşaqlarda özgüvən hissi, yaxşı əhvali-ruhiyyə yaranır, uşaqlar fəal, enerjili olur və yaradıcılıqları artır. Nəticədə öyrənməyə, axtarış aparmağa həvəsli olurlar.

**Situasiya 1. "Uşaqların palçıqla oynaması"**

**Problem:** Valideynlər uşaqların açıq havada palçıq və ya torpaqla oynamasının "çirkli" fəaliyyət olduğunu, xəstəlik riski yaratdığını düşünür. Tərbiyəçi-müəllim isə bunun uşaqların sensor inkişafı və təbiətlə təması üçün faydalı olduğunu vurğulayır.

**Həlli yolu:** Tərbiyəçi-müəllim valideynin narahatlığını dinləyir, gigiyena məsələsini etiraf edir.

1. Açıqlayır ki, fəaliyyət sonrası əllərin yuyulması və qoruyucu geyimlə bu riskin qarşısı alınır.
2. Tədqiqatlardan nümunə gətirir: palçıq oyunu uşaqlarda immun sistemini gücləndirir, yaradıcılığı artırır.
3. Kompromis təklif edir: həftədə bir dəfə planlı "palçıq oyunu günü" + əlavə gigiyena qaydaları və rahatlıqla çirklənməsinə icazə verdikləri paltar.

**Konfliktlərin idarə olunması üçün davranış alqoritmi**

1. **Aktiv dinləmə:** Valideynlərin narahatlıqlarını və perspektivlərini diqqətlə dinləyin. Empatiya göstərin və onların fikirlərini anlamağa çalışın.
2. **Əsaslandığınız etibarlı mənbələri valideynlərlə paylaşın:** Nə üçün bu təlim metodlarından istifadə etdiyinizi izah edin. Valideynlərlə bu mövzu ilə bağlı tədqiqatlar, beynəlxalq təcrübələri paylaşın və övladlarının öyrənməsinə və inkişafına necə fayda verdiyini əsaslandırın.
3. **Çeviklik:** Valideynlərlə əks-əlaqəni sıx tutun, onun əsasında metodların tənzimlənməsinə açıq olun. Uşağın fərdi tələbatını/ehtiyaclarını ödəmək üçün yeri gəldikcə müvafiq uyğunlaşmalar edin.
4. **Ortaq maraqlar axtarın:** Həm valideynlərin, həm də tərbiyəçi-müəllim kimi sizin eyni məqsəd - uşağın inkişafı üçün çalışdığınızı unutmayın.
5. **Üçüncü tərəfi cəlb edin:** Əgər fikir ayrılıqları davam edərsə, həlli asanlaşdırmaq üçün müəssisə rəhbərini və ya mütəxəssisi cəlb edin.

*Onu da qeyd etmək lazımdır ki, məktəbəqədər təhsildə valideynlərin iştirakı, nəinki təlim prosesinə fayda verir, ümumilikdə təhsilin keyfiyyətini artırır, ailələrin maariflənməsinə, bağça-icma ilə sağlam kommunikasiya qurulmasına, cəmiyyətin sosial-iqtisadi rifahına müsbət təsir göstərir.*

## Mövzu 5. Keçidlər anlayışı

**Uşağın daxili ritminin qorunması:** Məktəbəqədər yaş dövründə uşaqlar üçün ən çətin anlardan biri fəaliyyəti yarımçıq qoymaq və başqasına keçməkdir. Uşaq oyununun içində olanda ona birdən-birə "Dayan" deyildikdə, uşaqda bu narahatlıq və etiraz yaradır. Keçidlər uşağın "bir mərhələni bağlayıb, növbəti mərəhələyə keçməsi üçün körpüdür. Müəllim bu körpünü nə qədər yumşaq və planlı qurarsa, uşağın emosional vəziyyəti də o qədər sabit olar.

Məktəbəqədər yaşlı uşaqlar üçün keçid bir fəaliyyətdən digərinə yumşaq, planlı və aydın şəkildə olduqda:

- Uşaqlarda oyunu tamamlama rahatlığı və məmnuniyyəti yaranır;
- Uşaqlarda özünü tənzimləmə bacarıqları inkişaf edir;
- Tərbiyəçi-müəllimə günün planlı təşkilini təmin etmək imkanı yaradılır.

Əgər keçidlər planlanmasa, uşaqlar narahatlıq, etiraz və emosional gərginlik keçirə bilərlər. Keçidlərin səmərəliliyi üçün müxtəlif üsullar var:
**Şəkil və ya səsli siqnallar** – müəllim uşaqları vizual işarələr və səsli siqnallarla (əl çalmaq, musiqi, zəng) xəbərdar edir. Xəbərdarlıq **5 dəqiqə və 2 dəqiqə əvvəl** təkrar verilir. Bu xəbərdarlıq 2-5 dəqiqə ərzində təkrarlanır ki, uşaq hazırlaşsın. Bu, uşaqların emosional və fiziki keçidi üçün ayrıca vaxt qazandırır, qəflətən edilmiş keçidlər uşaqda tələskənlik, çaşqınlıq yaradır bu da öz növbəsində stresli reaktiv davranışlara səbəb olur.

**Keçidlərin səmərəli təşkili üçün tövsiyə:**
Bəzən uşaqlar oyundan məşğələyə keçməkdə çətinlik çəkirlər. Bu halda tərbiyəçi-müəllimə nəfəs texnikası kömək edir: Tərbiyəçi-müəllimin nəzarəti və təlimatı ilə uşaqlar birlikdə nəfəs alıb verirlər, sonra tərbiyəçi-müəllim "Donduq!" deyir və bir neçə saniyə uşaqlar hərəkətsiz qalırlar. Tərbiyəçi-müəllim "Donumuz açıldı!" siqnalı ilə uşaqları yeni mərhələyə dəvət edir.
**Nəfəs texnikası ilə özünütənzimləmə nümunəsi:** Uşaqlarla sadə nəfəs məşqi: nəfəs al (1-2-3-4), nəfəs ver (1-2-3-4-5), 2-3 dəfə təkrarla. Vacibdir ki, müəllim uşaqlara nəfəsi saxlamağı yox, yavaşca buraxmağı öyrətsin.
**Yumşaq və vədverici keçid** – müəllim sərt şəkildə deyil, yumşaq sözlərlə və "növbəti fəaliyyətə maraq oyadaraq" keçid edir. Yeni fəaliyyət yumşaq və maraqlı sözlərlə təqdim edilir: "İndi oyunu bitiririk, çünki bir azdan quşların səsini dinləyəcəyik".
Keçidlər təlimin planlaşdırılmasının ayrıca mərhələsi kimi nəzərə alınır, uşağa sakit şəkildə işi bitirmək imkanı verilir.

## Mövzu 6. Uşaqlarda sıralama bacarıqlarının inkişafı, açıq hava oyunlarına nitq və riyazi bacarıqların inteqrasiyası

Sıralama bacarığı hadisələrin və əşyaların məntiqi ardıcıllığını tanımaq və yaratmaq bacarığıdır. Uşaqda bu bacarıq formalaşdıqca onun həm danışığı, həm də düşüncəsi inkişaf edir, nitqi daha dəqiq və axıcı olur.

1–2 yaşda uşaq sadə "əvvəl/sonra" anlayışını öyrənir;
3–4 yaşda əşyaları ölçü və rənginə görə düzür;
4–5 yaşda nəticə çıxarır, hekayə və naxış qurur.

Məsələn, "Əvvəl qırmızı yarpağı tapdım, sonra sarını, axırda yaşılı". Bu cür ifadələr sadə bir oyunla həm hadisələrin ardıcıllığını izləmək bacarığını, həm də danışığı təkmilləşdirir.

Sıralama bacarığı uşağın nitqini inkişaf etdirir. Çünki ardıcıllıqla danışmaq üçün uşaq artıq cümlə qurmağa məcbur olur. Məsələn: "Əvvəl daş götürdüm, sonra dostuma göstərdim, axırda səbətə qoydum". Bu sadə cümlələr uşağın hekayə qurma bacarığını zənginləşdirir. Müəllim uşaqlara refleksiv suallar verməlidir ki, sadəcə "hə/yox" cavabı ilə kifayətlənməsinlər.

**Uşaqlarda nitqin inkişafını stimullaşdıran nümunə suallar:**

- "Rəngi axtaranda ilk gördüyün nə oldu?"
- "Bu yarpağın o birindən böyük olmasını necə izah edərsən?"
- "Ağaca dırmaşandan sonra nə etdin?"

Bundan başqa, müəllim uşağın sözlərini təkrarlayıb genişləndirə bilər: Uşaq "Qırmızı yarpaq" deyirsə, müəllim "Bəli, qırmızı yarpaq tapdın və onu səbətə qoydun" deyə əlavə edir. Həmçinin "Sonra nə oldu?" sualı ilə uşağı danışığı davam etdirməyə həvəsləndirə bilər.

Ardıcıllıq anlayışı riyazi düşüncənin təməlidir. Uşaq əşyaları ölçüsünə görə sıralayır, sayır, təsnif edir, müqayisə aparır. Uşaqlarda sıralama bacarığı həm də riyazi və məntiqi bacarıqlar üçün körpüdür.

**Riyazi bacarıqların açıq hava oyunlarına inteqrasiyası:** Açıq hava oyunlarında sadə və əyləncəli yollarla həm riyazi, həm məntiqi bacarıqlar inkişaf etdirilə bilər.

**Sayma:** "Neçə addımda ağaca çatdıq?"

**Ölçü müqayisəsi:** “Hansı daş böyükdür?”

**Həndəsi formalar:** “Günəş hansı həndəsi fiqura oxşayır?”

**Miqdar müqayisəsi:** “Qırmızı yarpaqlar çoxdur, yoxsa sarılar?”

**Sıralama:** “Çubuqları ən qısadan ən uzununa düzək”.

**Məkan qavrayışı:** “Gördüyümüz sərçə hara qondu? Budağın üstünə, yoxsa yarpaqların altında gizləndi?”

**Zaman qavrayışı:** İndi səhərdir, yoxsa günorta? Haradan bildiniz?

### Sərbəst fəaliyyət anlayışı (uşağın seçiminə hörmət)

Sərbəst fəaliyyət uşağın maraq və seçiminə əsaslanır. Bu zaman tərbiyəçi-müəllim nəzarətçi deyil, daha çox müşahidəçi və dəstəkləyici olur. Məqsəd uşağın öz oyununu qurmasına imkan verməkdir. Tərbiyəçi-müəllim sadəcə təhlükəsizliyi təmin edir və ehtiyac olduqda refleksiv suallarla uşağın düşüncəsini dərinləşdirir:

- “Bu daşları niyə belə düzdün?”
- “Növbəti addımı necə seçdin?”

Sərbəst fəaliyyət uşağa seçim azadlığı verir, onun yaradıcılıq və müstəqillik hissini gücləndirir.

## Ədəbiyyat siyahısı


1. Məktəbəqədər təhsil haqqında Azərbaycan Respublikasının Qanunu (2017) https://e- qanun.az/framework/35791
2. Məktəbəqədər təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olan ali və orta ixtisas təhsilli tərbiyəçi-müəllimlərin peşəkarlıq səviyyəsinin və peşə yararlılığının yoxlanılması üçün
3. Tərbiyəcimuəllimlərin_diaqnostik_qiymətləndirmə_cərcivəsi_2024-ictimaiyyət- ucun-1.pdf (arti.edu.az)
4. Müəllimlərin etik davranış qaydaları (Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 2014-cü il 6 noyabr tarixli, ½ nömrəli Qərarı) https://edu.gov.az/upload/file/emre-elave/2014/
5. Məktəbəqədər təhsil kurikulumu (2022) https://edu.gov.az/uploads/emreelave/2022/mektebeqeder_tehsil_proqrami- kurikulum.pdf
6. Məktəbəqədər təhsil proqramınınn (kurikulumun) tətbiqinə dair metodiki tövsiyələr Məktəbəqədər-təhsil-proqraminin-kurikulumun-t ətbiqinə-dair-metodiki- tovsiyələr-1.pdf (arti.edu.az)
7. Eliminate Barriers to Risk Taking in Outdoor Play | NAEYC
8. The Influence of Outdoor Play on Social and Cognitive Development | Encyclopedia on Early Childhood Development
9. Nature and success: Outdoor play is linked to school readiness - ScienceDirect
10. Importance of Outdoor Play for Children’s Overall Development.
11. Rocking and Rolling. Fresh Air, Fun, and Exploration: Why Outdoor Play Is Essential for Healthy Development | NAEYC
12. The Benefits of Outdoor Play: Why It Matters | Children's Hospital of Philadelphia
13. Stress Reduction and Emotional Resilience Through Outdoor Play.
14. How Outdoor Play Improves Children's Mental Health and Wellbeing
15. Healthy childhood development through outdoor risky play: Navigating the balance with injury prevention | Canadian Paediatric Society
16. Safety Guidelines for Outdoor Activities in Early Childhood.
17. Outdoor Play and Safety for Children in ECE | Early Care and Education Portal | CDC
18. NAEYC: Outdoor Play and Learning in Early Childhood Education
19. CDC: Physical Activity Guidelines for Preschool-Aged Children
20. Physical Activity During Early Childhood: The Importance of Parental Modeling - PMC
21. Parental Encouragement for Outdoor Play.

Parental encouragement is positively associated with outdoor active play outside of school hours among 7–12 year olds - PMC

**Müəllif:**
Fərqanə Seyidli

**Mətn üzrə redaktə işi:**
Leyla Məmmədova
Aytən Quluyeva

**Texniki redaktor:**
Nərgiz Kərimova